10 mart / 2021

# Xalça Muzeyində Xalq rəssamı Kamil Əliyev anılıb



Azərbaycan Milli Xalça Muzeyində Azərbaycan xalq dekorativ-tətbiqi sənətinin parlaq nümayəndələrindən olan Xalq rəssamı, professor Kamil Əliyevin anım gününə həsr edilmiş tədbir keçirilib.

Muzeydən bildirilib ki, tədbirdə Xalça Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova, muzeyin Şuşa filialının müdiri Əlisəfa Nuriyev, Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbani, görkəmli rəssamın qızı Nərminə Əliyeva çıxış edərək, xalçaçılıq sənətinin milli xüsusiyyətlərini, incəliklərini qoruyub saxlayan, onu daha da zənginləşdirən böyük sənətkarın keçdiyi şərəfli ömür, zəngin yaradıcılıq yolu barədə geniş məlumat verib, onunla bağlı yaddaqalan xatirələrini bölüşüblər. Bildirilib ki, fərqli üslubu ilə mədəniyyətimizə böyük töhfələr verən, xalçada rəngarəng milli naxışlar, rəng çalarları, müxtəlif kompozisiyalar yaradan Kamil Əliyevin yaradıcılığında 50-ci illərdən etibarən süjetli və portret-xalçalar əsas yer tutub. Onun bir-birinin ardınca Azərbaycan və dünya klassiklərinin, şair və mütəfəkkirlərinin, görkəmli dövlət və ictimai xadimlərin portretlərini yaratdığı, bu dövrdə xalça sənətində portret janrının ən yüksək səviyyəyə çatdığı diqqətə çatdırılıb.

Həmçinin, 2021-ci ildə dahi sənətkarın 100 illik yubileyi münasibətilə müxtəlif tədbirlərin, o cümlədən, beynəlxalq konfransın keçiriləcəyi vurğulanıb.

Qeyd edək ki, ölkəmizdə müəyyən olunmuş karantin qaydalarına uyğun şəkildə keçirilən tədbir muzeyin İnstaqram səhifəsindən canlı olaraq yayımlanıb.